AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU



# *Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün ədəbiyyat fənni üzrə kurikulum*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 aprel 2022-ci il tarixli F-238 nömrəli əmri ilə təsdiq edilmişdir.*

Təmayül sinifləri üçün ədəbiyyat fənni üzrə kurikulum aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır:

**Soltan Hüseynoğlu** – ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
**Bilal Həsənli** – ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, əməkdar müəllim
**Aynur Mustafayeva** – Bakı şəhəri, 18 nömrəli məktəbin ədəbiyyat müəllimi, "İlin müəllimi" müsabiqəsinin qalibi

**Rəyçilər:**
**Nazilə Abdullazadə** – pedaqogika üzrə fəlsəfə doktoru, dosent, ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyaları kafedrasının müdiri
**Mirdaməd Sadıqov** – pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Sədaqət Məmmədova** – Bakı şəhəri 67 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
**Aytən Qasımova** – Göyçay rayonu Qarabağlar kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**tərəfindən məsul şəxslər:**

**Mənsur Məhərrəmov**, ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin müdiri

**Rasim Abdurazaqov**, ARTİ-nin Tədris resursları şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**İmran İbişov**, ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin aparıcı mütəxəssisi

# *Mündəricat*


Giriş 5

I. Tam orta təhsil səviyyəsinin təmayül siniflərində

ədəbiyyat təliminin məzmunu 7

1.1. Ümumi təlim nəticələri 8

1.2. Məzmun xətləri 8

1.3. Məzmun standartları 8

II. Təlimin təşkili və qiymətləndirmə 11

2.1. Təlimin təşkilinə dair əsas tələblər və fənnin xarakterinə 12

uyğun təlim yanaşmaları 12

2.1.1. Təlimin təşkilinə dair əsas tələblər 12

2.1.2. Təmayüllü X və XI siniflərdə ədəbiyyat təliminin

məzmununa uyğun təlim yanaşmaları 12

2.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi 14

2.2.1. Qiymətləndirmənin əsas prinsipləri 14

2.2.2. Qiymətləndirmə meyarları 15

III. Resurslar 26

3.1. Ədəbiyyat kabinetinin tələblərə uyğun təchizatı 27

IV. Tezaurus 30

# Giriş

Təhsilin modernləşdirilməsi cəmiyyətimizdə gedən yeniləşmə, inkişaf meyilləri, islahatlar, təhsilin humanitarlaşdırılması meyilləri ilə səsləşir. Tam orta təhsil pilləsində təmayülləşmə şagirdlərin dünyagörüşünün inkişafı, mədəni, milli və ümumbəşəri dəyərlərə dərindən yiyələnməsi, istedadının üzə çıxarılması üçün zəmin yaradır. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, bizim uşaqlarımız doğma ana dilimizi, ədəbiyyatımızı, tariximizi mükəmməl öyrənməli və bilməlidirlər.

Təmayülləşmə konsepsiyası yuxarı siniflərdə humanitar yönümlü diferensial təlimin həyata keçirilməsinə geniş imkanlar açır. Bu, eyni zamanda ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə, bilik və bacarıqları ilə fərqlənən məktəblilərlə səmərəli iş aparılmasına da ciddi təsir göstərəcəkdir. Təmayülləşmə ədəbi təhsil üzrə bilik və bacarıq səviyyəsi ilə fərqlənən şagirdlərin istedadlarının, potensial imkanlarının, meyil və maraqlarının reallaşmasında, onların ümumi inkişafında əhəmiyyətli rol oynayacaqdır. Beləliklə, tam orta təhsil səviyyəsində təmayül sinfi uğurla bitirən istedadlı şagirdin təhsilini ali məktəbdə davam etdirməsi də təmin olunur.

Təmayül siniflərində təlim – X-XI siniflərdə təhsilin elə diferensiasiya (fərqləndirmə) və fərdiləşdirmə vasitəsidir ki, tədris prosesinin məzmunu, quruluşu və təşkilində şagirdlərin tələbat, maraq, meyil və bacarıqlarını daha əhatəli nəzərə almağa, şagirdlərin inkişaf səviyyəsinə uyğun təlim şəraiti yaratmağa imkan verir.

Təmayül siniflərində təlimə keçid imkan verir ki:

ədəbiyyat təliminin məzmunu fərqləndirilsin, fərdi kurikulumlarının tərtibinə şərait yaradılsın;

ədəbiyyat fənninin dərindən öyrənilməsi, zəruri bacarıqların formalaşdırılması təmin edilsin;

cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınsın;

ümumi və peşə təhsili arasında varislik və davamlılıq təmin olunsun.

Təmayül siniflərində təhsilin əsas məqsədi şagirdlərin bədii əsəri dərindən qavramaq, təhlil etmək və dəyərləndirmək, şifahi və yazılı nitq, düşüncəli oxumaq, ədəbi mətnlə işləmək, müstəqil araşdırma bacarıqlarını inkişaf etdirmək, onların ədəbi inkişafına nail olmaq zəminində azərbaycançılıq ideyalarına sadiq, fəal, bədii-estetik duyumlu, yaradıcı vətəndaş və şəxsiyyət yetişdirmək, müasir dünyagörüşü formalaşdırmaq, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrini reallaşdırmaqdır.

Təmayül siniflərində ədəbiyyat təliminin vəzifələri:

- bədii əsərdə məzmun və forma əlaqələrini açıqlamaq, onu ədəbi-tarixi hadisə kimi qavramaq, həll etdiyi problemi müəyyənləşdirmək və qiymətləndirmək bacarığını zənginləşdirmək;
- ədəbiyyat tarixi və nəzəriyyəsi üzrə biliklərdən istifadə etməklə keçilmiş ədəbi-tarixi yolu, müəllifin idealını səciyyələndirmək bacarığını formalaşdırmaq;
- söz sənəti nümunələrini, zəruri ədəbi-nəzəri bilikləri, eləcə də təhlil, dəyərləndirmə üzrə bacarıqları mənimsətməklə bədii, yaradıcı, tənqidi, məntiqi təfəkkürün inkişafına nail olmaq;
- incəsənətin bir növü olmaqla söz sənətinin – milli ədəbiyyatımızın tarixi inkişaf qanunauyğunluqları barədə təsəvvür yaratmaq;
- bədii əsəri emosional-obrazlı qavramaq, ifadəli oxumaq, yaradıcı dəyərləndirmək bacarıqlarını inkişaf

etdirməklə mütaliə mədəniyyəti aşılamaq;

- yazıçının tərcümeyi-halının, yaradıcılığının dərindən öyrənilməsi əsasında dünyagörüşü, şəxsiyyəti, həyat mövqeyi, yaradıcılıq amalı, ədəbi-estetik baxışları haqqında təsəvvür formalaşdırmaq;
- ədəbi-tarixi prinsip əsas götürülməklə müxtəlif dönəmlərin ədəbi-mədəni mənzərəsi üçün səciyyəvi olan xüsusiyyətləri mənimsətmək, ədəbi prosesin inkişaf yolu barədə təsəvvür formalaşdırmaq;
- ədəbi əsəri yaradıcı oxumaq, müstəqil təhlil etmək bacarığını inkişaf etdirmək;
- bədii dilin imkanlarının dərk edilməsi zəminində ədəbi əsəri real gerçəkliyin nümunəsi kimi təhlil etmək üzrə bacarıqlar formalaşdırmaq;
- əlavə mənbələr üzərində işləmək, tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək;
- şifahi və yazılı nitq üzrə bacarıqların formalaşdırılması;
- milli və bəşəri dəyərlərə yiyələnməyə, qazanılmış həyati bacarıqları real həyati situasiyalarda tətbiq etməyə nail olmaq;
- milli ədəbiyyatın özünəməxsusluğunu və dünya ədəbiyyatında əhəmiyyətini müəyyən etmək bacarığını aşılamaq;
- ədəbiyyatın incəsənətin digər növləri ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirmək;
- ədəbi-tarixi proses, söz sənətinin inkişaf meyilləri, sənətkarın həyat və yaradıcılığı, bədii əsər barədə şifahi və yazılı təqdimatlar hazırlamaq, diskussiya və polemikalarda fəal iştirak etmək, öz mövqeyini əsaslandırmaq bacarığını aşılamaq.

# I. Tam orta təhsil səviyyəsinin təmayül siniflərində ədəbiyyat təliminin məzmunu



## 1.1. Ümumi təlim nəticələri

**Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üzrə ədəbiyyatdan şagird:**

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;
- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- yaradıcı xarakterli yazılarında əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideya və məzmununa münasibət bildirir, ümumiləşdirmələr aparır;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;
- ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliyin mahiyyətini aydınlaşdırır, münasibət bildirir;
- ədəbi-tarixi məlumatlara, tərcümeyi-hal materiallarına əsaslandırılmış münasibət bildirir;
- bədii nümunələrin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;
- ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;
- mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır.

## 1.2. Məzmun xətləri

**1. Ədəbiyyat və həyat həqiqətləri məzmun xətti** ədəbiyyat nümunələrinin öyrənilməsi, müxtəlif informasiya mənbələrindən seçilmiş materialların mövzu, ideya, dil və üslub xüsusiyyətləri baxımından dəyərləndirilməsinə imkan yaradır, informasiyaların faktlara əsaslanmaqla tənqidi araşdırılmasını təmin edir, müxtəlif ədəbi növ və janrlarda olan ədəbi əsərlərdəki problem və konfliktlərin, ictimai-siyasi həyatdakı mühüm hadisələrin ümumbəşəri və milli-mənəvi dəyərlər baxımından qiymətləndirilməsi üçün əsas olur.

Ədəbi-tarixi, mədəni həyatdakı əhəmiyyətli dəyişikliklərin mahiyyətinin aydınlaşdırılması əsaslandırılmış münasibətin bildirilməsinə zəmin yaradır.

**2. Şifahi nitq məzmun xətti** ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı fakt və hadisələrə əsaslandırılmış münasibət bildirilməsini, bədii-obrazlı ifadələrdən istifadə olunmasını təmin edir. Müxtəlif mənbələrdən toplanmış məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, bioqrafik materiallara müzakirələrdə müstəqil mövqeyin ifadə olunmasına imkan yaradır.

**3. Yazılı nitq məzmun xətti** müxtəlif üslublarda yazıların yazılmasını, ədəbi nümunələrin obraz, problem və bədii xüsusiyyətlərinə münasibət bildirilməsini, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə təqdimatların hazırlanmasını təmin edir.

## 1.3. Məzmun standartları

### X sinif

**1. Ədəbiyyat və həyat həqiqətləri**
**Tam orta təhsil səviyyəsinin X təmayül sinfinin sonunda şagird:**
**1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.**
1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.
1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.
1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırıb plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir.
1.1.4. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.
1.1.5. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında

əhəmiyyətli olan epizodları müəyyənləşdirir.

**1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**
1.2.1. Müxtəlif vəznli (heca, əruz) şeirləri və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.
1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.
1.2.3. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır.
1.2.4. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.
1.2.5. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun necə həll olunduğuna münasibət bildirir.
1.2.6. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir.
1.2.7. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, münasibət bildirir.
1.2.8. Bədii nümunələrin mövzusunu, başlıca ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir.

**1.3. Ədəbi-tarixi, tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirir.**
1.3.1. Ədəbi-tarixi fakt və məlumatları izah edir, nəticə çıxarır.
1.3.2. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, nəticə çıxarır.
Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır.
1.3.4. Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini aydınlaşdırır, münasibət bildirir.

**2. Şifahi nitq**
**2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.**
2.1.1. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir.
2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara münasibətini əsaslandırır.

**2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.**
2.2.1. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.

**3. Yazılı nitq**
**3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.**
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara geniş yer verir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.

## XI sinif

**1. Ədəbiyyat və həyat həqiqətləri.**
**Tam orta təhsil səviyyəsinin XI təmayül sinfinin sonunda şagird:**
**1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.**
1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.
1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir.
1.1.4. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.
1.1.5. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir, izah edir.

**1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**
1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir.
1.2.2. Obrazları davranış və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.
1.2.3. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini, həyata baxışını aydınlaşdırır, münasibət bildirir.
1.2.4. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir, nəticə çıxarır.
1.2.5. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun fərqli həlli yolları barədə əsaslandırılmış fikir söyləyir.
1.2.6. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla müqayisə edir, ümumiləşdirir.
1.2.7. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, müqayisə edir, münasibət bildirir.
1.2.8. Bədii nümunələrin mövzusuna, ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir.

**1.3. Ədəbi-tarixi (icmal), tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirir.**
1.3.1. Ədəbi-tarixi fakt və məlumatları izah edir, münasibət bildirir.
1.3.2. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, münasibət bildirir.
1.3.3. Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığında əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır və münasibət bildirir.
1.3.4. Ədəbi-tarixi, mədəni həyatdakı inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir və onlara əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq:**
**2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.**
2.1.1. Müxtəlif mənbələrdən topladığı məlumatlardan istifadə etməklə ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında əsaslandırılmış münasibət bildirir.
2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, obrazların xarakterinə, təsvir olunanlara əsaslandırılmış münasibətini bildirir.

**2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.**
2.2.1. Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.

**3. Yazılı nitq**
**3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.**
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara və şəxsi mühakimələrinə geniş yer verir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 4-4,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.

# II. Təlimin təşkili və qiymətləndirmə



## 2.1. Təlimin təşkilinə dair əsas tələblər və fənnin xarakterinə uyğun təlim yanaşmaları

### 2.1.1. Təlimin təşkilinə dair əsas tələblər

Müasir dövrdə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanır. Pedaqoji prosesdə:

- müəllimlər əlaqələndirici, istiqamətverici, məsləhətçi subyekt kimi çıxış edir;
- şagirdlər tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər.

**Ədəbiyyat təliminin təşkilində aşağıdakı prinsiplər əsas götürülür:**

1. Pedaqoji prosesin tamlığı
2. Təlimdə bərabər imkanların yaradılması
3. Şagirdyönümlülük
4. İnkişafyönümlülük
5. Fəaliyyətin stimullaşdırılması
6. Dəstəkləyici mühitin yaradılması
7. Elmilik
8. Sistemlilik
9. Əyanilik
10. Müstəqillik, şüurluluq və fəallıq
11. Bilik və bacarıqların tamlığı və əlaqəliliyi

**Fəaliyyət xətləri.** Tam orta təhsil səviyyəsinin təmayül siniflərində ədəbiyyat fənni üzrə məzmun standartlarını reallaşdırmaq üçün aşağıdakı fəaliyyət xətlərindən istifadə olunması məqsədəuyğundur.

1. Problemin formalaşdırılması və həlli
2. Proqnozlaşdırma
3. Tədqiqatın planlaşdırılması, aparılması
4. Təqdimat mübadiləsi
5. Müzakirə
6. Ümumiləşdirmə, nəticəçıxarma
7. Dəyərləndirmə
8. Ünsiyyət və əməkdaşlıq
9. Yaradıcı tətbiqetmə
10. Özünüqiymətləndirmə

### 2.1.2. Təmayül siniflərində ədəbiyyat təliminin məzmununa uyğun təlim yanaşmaları

Təmayül siniflərində təhsil ədəbi səriştənin formalaşmasına yönəlib, şagirdlərin bədii əsəri dərindən təhlil etmək, şifahi və yazılı nitqini , düşüncəli oxu vərdişlərini, ədəbi mətnlərlə müstəqil işləmək bacarığını inkişaf etdirməyi diqqət mərkəzinə çəkir. Ədəbiyyat dərslərində şagirdlərin ədəbi inkişafına nail olmaq zəminində dünyagörüşü formalaşdırılır, milli və ümumbəşəri dəyərlərə yiyələnmələri reallaşdırılır. Bədii mətni diqqətlə, düşüncəli oxumaq, fərqli oxu strategiyalarını mənimsəmək, ədəbi nümunənin məzmununu dərindən mənimsəmək, əhatəli təhlil etmək bacarıqlarının şagirdlərdə formalaşdırılması ədəbiyyat təlimində gerçəkləşdirilən mühüm tələblərdəndir.

Təlimin bu istiqamətdə təşkili yaradıcılıq, təhlil, inşa, esse yazı bacarıqlarını daha səmərəli şəkildə formalaşdırmağa, mənəvi-estetik inkişafı təmin etməyə imkan yaradır.

Təmayül siniflərində ədəbi təhsil bir neçə istiqamət üzrə aparılır:

1. Ədəbi-bədii mətnlər üzrə iş;
2. Ədəbiyyat tədrisinin tarixi inkişaf mərhələlərinin, onların başlıca xüsusiyyətlərinin, sənətkarın yaradıcı şəxsiyyətinin öyrənilməsi;
3. Ədəbi-nəzəri biliklərin mənimsənilməsi əsasında bədii-estetik qavrama, ədəbiyyatın bir sənət növü kimi xüsusiyyətlərinin dərk olunması.
4. Kommunikativ-nitq fəaliyyəti, ünsiyyət məqsədləri üçün şifahi və yazılı nitq mədəniyyətinin mənimsənilməsi.

Təmayül sinifləri üçün kurikulumda icmal mövzuların öyrənilməsini nəzərdə tutan standart artırılmışdır. X sinifdə icmal mövzularla söz sənətinin ədəbi-tarixi zəmində, xronoloji ardıcıllıqla tədrisinə başlanılır. İcmal mövzuları şagirdlərin ədəbiyyat tarixinin yeni dövrləşdirilməsinə uyğun olaraq, ayrı-ayrı mərhələlərdə ədəbi mühit, şərait, yaradıcılıq meylləri ilə bağlı sistemli biliklərə yiyələnməsinə, söz sənətimizin inkişaf prosesini izləməyə imkan verir. Bu zaman fərqli dövrlərdə yaşamış sənətkarların yaradıcılığı üçün səciyyəvi olan cəhətlər, əsərlərindəki başlıca ideyalar aydınlaşdırılır. İcmal mövzularda dövrün, mərhələnin əsas tarixi, ictimai-siyasi hadisələri və onların ədəbiyyatda bədii əksi, ədəbi mühit, aparıcı sənətkarların yaradıcılığı, bədii əsərlərinin problematikası, üslubu yığcam şəkildə səciyyələndirilir. Bu məsələlərin dərindən öyrənilməsində tarixi və ədəbi hadisələrin bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqədə qavranılması zəruridir. Əsas diqqət tarixi hadisə və faktların sadalanmasına, geniş təhlilinə deyil, mühüm ədəbi-bədii məsələlərə yönəldilməlidir. Bu mövzuların tədrisində fənlərarası əlaqənin reallaşdırılması, tarix fənni üzrə qazanılmış biliklərdən istifadə zəruridir. Tarixi hadisələr barədə söhbət zamanı həmin dövrlə bağlı bədii əsərlərin nümayiş etdirilməsi məqsədəuyğundur.

Tərcümeyi-hal materialı vasitəsilə şagirdlər sənətkarın həyat yolunu, yaradıcılıq taleyini, şəxsiyyətini, estetik baxışlarını öyrənirlər. Sənətkarın həyat mövqeyi, hissləri, yaşantıları, düşüncələri onun yaradıcılığında öz əksini tapır. Bu məsələlərin öyrənilməsi onun monoqrafik şəkildə tədris olunan bədii əsərlərinin dərindən mənimsənilməsinə imkan yaradır.

Təmayül siniflərində ədəbiyyatın dərindən öyrənilməsi yeni fəal/interaktiv təlim texnologiyalarının tətbiqini, təlimin tədqiqat səciyyəli olmasını, mənbələr üzrə axtarışın təşkilini, fəndaxili, eləcə də dil, tarix, coğrafiya və s. fənlərlə inteqrasiyanın reallaşdırılmasını tələb edir.

Təlim texnologiyalarının məzmun xətləri üzrə aşağıdakı kimi qruplaşdırılması məqsədəuyğundur. Eyni zamanda nəzərə almaq lazımdır ki, təlim texnologiyalarının, metodların bu və ya digər məzmun xətti üzrə qruplaşdırılması şərti səciyyə daşıyır. Belə ki eyni bir metod müxtəlif məzmun xətlərinin reallaşdırılmasında tətbiq oluna bilər. Məsələn, müzakirə, diskussiya, Venn diaqramı, İnsert və s. metodlardan ayrı-ayrı məzmun xətləri üzrə iş zamanı istifadənin məqsədəuyğunluğu məktəb təcrübəsində öz təsdiqini tapmışdır.
Təmayül siniflərdə ədəbiyyat və həyat həqiqətləri məzmun xətti ilə bağlı bacarıqları inkişaf etdirmək üçün yeni təlim texnologiyalarından istifadə olunması faydalı hesab edilir.

Beləliklə, bədii əsərin məzmununun mənimsənilməsi üzrə iş zamanı daha səciyyəvi və tətbiq imkanları geniş olan metodlar və oxu strategiyaları aşağıdakılardır.

- Fasilələrlə oxu
- Proqnozlaşdırılmış oxu
- İkihissəli gündəlik
- Dərinləşdirilmiş oxu
- Seçmə oxu
- Qeyri-ardıcıl oxu
- Nəzərdən keçirməklə oxu
- Qeydlər aparmaqla oxu
- İşarələyərək oxu
- Sual verməklə oxu
- Tənqidi oxu
- Müzakirə edərək oxu

- Rollu oxu
- Müqayisəli oxu
- Blum kubu
- Sinkveyn
- Cümləni tap
- Müzakirə
- Əqli hücum
- Söz assosiasiyaları
- İnsert
- Müqayisə cədvəli
- Venn diaqramı
- BİBÖ
- Debat
- Şaxələndirmə (klaster)
- Rollu oyun
- Təqdimat
- Layihələr üzrə işin təşkili
- Keys metodu

Şifahi nitq məzmun xətti ilə bağlı bacarıqları inkişaf etdirmək üçün aşağıdakı texnologiyalardan istifadə olunması faydalı hesab edilir.

- **Səhvimi düzəlt**
- **Zəncirli hekayə**
- **Sinektika**
- **Müzakirə xəritəsi**

Yazılı nitq məzmun xətti üzrə tətbiq olunan yazı fəaliyyəti texnologiyaları aşağıdakılardır.

- **Esse**
- **İnşa**
- **Məruzə**
- **Məqalə**

## 2.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi

### 2.2.1. Qiymətləndirmənin əsas prinsipləri

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- təlimin keyfiyyətinin ölçülməsi və təshih edilməsi yolu ilə bütövlükdə təhsilin inkişafına nail olmaq;
- informasiyadan ("bilik"dən) vasitə kimi istifadə edərək, təhsilalanların bacarıq və vərdişlərinin ölçülməsini həyata keçirmək;
- hər bir şagirdin təlim nəticələri haqqında etibarlı məlumat əldə etmək;
- qiymətləndirmənin nəticələri əsasında təlimin keyfiyyətini yaxşılaşdıra biləcək növbəti addımları müəyyən etmək;
- şagirdlərə qabiliyyətlərinə uyğun peşə seçməkdə yardım göstərmək;
- şagirdin daha yüksək pillədə təhsil ala bilməsi üçün zəruri kompetensiyalara yiyələnməsini təmin etmək;
- təlim-tərbiyə prosesində baş verə biləcək neqativ halların qarşısını almaq;
- fənn kurikulumlarında və dərsliklərdə mövcud olan problemləri aşkara çıxarmaq;
- nailiyyətlərin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda ölkəmizin iştirakını təmin etmək;
- fənn müəlliminin öz fəaliyyətini qiymətləndirməsi.

Bütün növ qiymətləndirmədə aşağıdakı prinsiplərə əməl edilir:

**Məqsədəuyğunluq.** Bu prinsip ölçülməsi mümkün olan nəyin və hansı məqsədlə qiymətləndiriləcəyinin əvvəlcədən müəyyən edilməsini, buna müvafiq qiymətləndirmə vasitələrinin (açıq, yaxud qapalı tipli test tapşırıqlarının, açıq və ya qapalı suallardan ibarət sorğu vərəqlərinin, situativ tapşırıqların və s.) hazırlanmasını, seçilmiş qiymətləndirmə vasitələrinin gözlənilən keyfiyyətə müvafiqliyinin və etibarlılığının təmin olunmasını (validliyini və relevantlığını) tələb edir.

**Şəffaflıq, dəqiqlik, obyektivilik və ədalətlilik.** Bu prinsiplər qiymətləndirmənin tədris proqramlarına və digər normativ aktlara uyğun, elmi baxımdan mübahisə doğurmayan məlumatlar əsasında, şagirdlər arasında heç bir diskriminasiyaya yol vermədən, qiymətləndirmə meyarlarını əvvəlcədən elan edərək aparılmasını tələb edir.

**İnkişafetdiricilik.** Bu prinsip şagirdlərin idrak qabiliyyətlərinin aşkara çıxarılması və onların tədqiqatçılıq bacarıqlarının ölçülməsi yolu ilə təhsilin şəxsiyyətyönlü, tələbyönlü və səmərəli olmasını təmin edir.

**İnklüzivlik**. Bu prinsip qiymətləndirmə prosesinin həyata keçirilməsi zamanı fiziki məhdudiyyətləri olan şagirdlərin imkanlarının nəzərə alınmasını ehtiva edir.

### 2.2.2. Qiymətləndirmə meyarları

Qiymətləndirmə meyarları məzmun xətlərinin qiymətləndirmə sxemləri (QS) şəklində hazırlanır. Qiymətləndirmə sxemi uyğun məzmun standartlarının hər birinin 4 səviyyə (rubrik) üzrə qiymətləndirmə şkalasından ibarətdir. Qiymətləndirmə şkalası B.Blum taksonomiyasına uyğun idrak fəaliyyəti piramidasının oturacaqdan zirvəsinə doğru şagirdin inkişafını əks etdirir. Şkalada I və II səviyyədə orta idrak fəaliyyəti nümayiş etdirən şagirdlər, III və xüsusilə IV səviyyədə isə daha yüksək idrak fəaliyyəti nümayiş etdirən şagirdlər nəzərdə tutulur.

### X sinif üzrə

| **1. Ədəbiyyat və həyat həqiqətləri.** | |
|---|---|
| **Məzmun standartları** | **Qiymətləndirmə səviyyələri** |
| **1.1.Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir** | **1.1.QS1 Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.1.1.Müxtəlif vəznli şeirlərdə (heca, əruz) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | 1.1.1.IV. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin mənasını mənşəyinə, işlənmə məqamına görə izah edir, oxşar sözlərdən fərqləndirir.<br>1.1.1.III. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə şərh edir, sinonimlər göstərir.<br>1.1.1.II. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin mənasını mənşəyinə, işlənmə məqamına görə izah edir.<br>1.1.1.I. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin mənasını işlənmə məqamına görə izah edir. |

| | |
|---|---|
| 1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədilə istifadə edir. | 1.1.2.IV. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədilə istifadə edir, nəticə çıxarır.<br>1.1.2.III. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədilə istifadə edir.<br>1.1.2.II. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması məqsədilə istifadə edir.<br>1.1.2.I İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin məzmununun qavranılması məqsədilə istifadə edir. |
| 1.1.3.Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir. | 1.1.3.IV. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, ilkin münasibət bildirir.<br>1.1.3.III. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu (yığcam, geniş, yaradıcı) nağıl edir.<br>1.1.3.II. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, məzmununu (yığcam, geniş, yaradıcı) nağıl edir.<br>1.1.3.I. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrin məzmununu (yığcam, geniş, yaradıcı) nağıl edir. |
| 1.1.4. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual,təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | 1.1.4.IV. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini (epitet, bənzətmə, metafor...) seçimini əsaslandırmaqla müəyyənləşdirir.<br>1.1.4.III. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor...) fərqli cəhətlərini izah etməklə müəyyənləşdirir.<br>1.1.4.II. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini (epitet, bənzətmə, metafor...) fərqli cəhətlərini,əsasən, izah etməklə müəyyənləşdirir.<br>1.1.4.I. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir vasitələrini (epitet, bənzətmə, metafor...) qismən izah etməklə müəyyənləşdirir. |
| 1.1.5.Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir. | 1.1.5.IV. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir, dəyərləndirir.<br>1.1.5.III. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları əsaslandırmaqla müəyyənləşdirir..<br>1.1.5.II. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları izah etməklə müəyyənləşdirir.<br>1.1.5.I. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir. |
| **1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlarını nümayiş etdirir.** | **1.2.QS2 Bədii nümunələrin təhlili üzrə bacarıqların nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |

| | |
|---|---|
| 1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | 1.2.1.IV. 1Müxtəlif vəznli (heca, əruz) şeirləri və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir, nəticə çıxarır.<br>1.2.1.III. Müxtəlif vəznli şeirləri (heca, əruz) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir, ilkin münasibət bildirir.<br>1.2.1.II.Müxtəlif vəznli şeirləri (heca, əruz) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr və dil baxımından müqayisə edir.<br>1.2.1.I. Müxtəlif vəznli şeirləri (heca, əruz) və və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr və dil baxımından qismən müqayisə edir. |
| 1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | 1.2.2.IV. Obrazları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir.<br>1.2.2.III. Obrazları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə əsaslanmaqla təhlil edir.<br>1.2.2.II. Obrazları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə əsaslanmaqla səciyyələndirir.<br>1.2.2.I. Obrazları davranış və əməllərinə əsaslanmaqla səciyyələndirir. |
| 1.2.3.Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır. | 1.2.3.IV. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır, mövqeyini dəyərləndirir.<br>1.2.3.III. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.<br>1.2.3.II. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır, ilkin münasibət bildirir.<br>1.2.3.I. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır |
| 1.2.4. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir. | 1.2.4.IV. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir, nəticə çıxarır, dəyərləndirir.<br>1.2.4.III. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.<br>1.2.4.II. Əsərdəki başlıca problemi müəyyənləşdirir, münasibət bildirir.<br>1.2.4.I. Əsərdəki başlıca problemi müəyyənləşdirir. |
| 1.2.5.Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun necə həll olunduğuna münasibət bildirir. | 1.2.5.IV. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun necə həll olunduğuna əsaslandırılmış münasibət bildirir.<br>1.2.5.III. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun necə həll olunduğuna münasibət bildirir.<br>1.2.5.II. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, münasibət bildirir.<br>1.2.5.I Əsərdəki başlıca konflikti müəyyənləşdirir. |
| 1.2.6. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir. | 1.2.6.IV. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir, ümumiləşdirmə aparır.<br>1.2.6.III. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir, müqayisə edir.<br>1.2.6.II. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir, ilkin münasibət bildirir.<br>1.2.6.I. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir. |

| | |
|---|---|
| 1.2.7.Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, münasibət bildirir. | 1.2.7.IV. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.<br>1.2.7.III. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, münasibət bildirir.<br>1.2.7.II. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, ilkin münasibət bildirir.<br>1.2.7.I. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır. |
| 1.2.8. Bədii nümunələrin mövzusunu, başlıca ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir. | 1.2.8.IV. Bədii nümunələrin mövzusunu, ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir, əsaslandırılmış münasibət bildirir.<br>1.2.8.III. Bədii nümunələrin mövzusunu, ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir, ilkin münasibət bildirir.<br>1.2.8.II. Bədii nümunələrin mövzusunu, ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir.<br>1.2.8.I. Bədii nümunələrin mövzusunu bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir. |
| **1.3. Ədəbi-tarixi (icmal), tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirir.** | **1.3.QS3. Ədəbi-tarixi (icmal), tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 1.3.1.Ədəbi-tarixi fakt və məlumatları izah edir, nəticə çıxarır. | 1.3.1.IV. Ədəbi-tarixi fakt və məlumatları izah edir, əsaslandırılmış nəticə çıxarır.<br>1.3.1.III. Ədəbi-tarixi fakt və məlumatları izah edir, nəticə çıxarır.<br>1.3.1.II. Ədəbi-tarixi fakt və məlumatları izah edir.<br>1.3.1.I. Ədəbi-tarixi faktları izah edir. |
| 1.3.2. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, nəticə çıxarır. | 1.3.2.IV. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, əsaslandırılmş nəticə çıxarır.<br>1.3.2.III. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, nəticə çıxarır.<br>1.3.2.II.Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir.<br>1.3.2.I. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan faktları izah edir. |
| 1.3.3.Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır. | 1.3.3.IV. Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır, əsaslandırılmş münasibət bildirir.<br>1.3.3.III. Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır, münasibət bildirir.<br>1.3.3.II. Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır.<br>1.3.3.I. Mühüm ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyatındakı əhəmiyyətli dönəmləri aydınlaşdırır. |

| | |
|---|---|
| 1.3.4.Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini aydınlaşdırır, münasibət bildirir. | 1.3.4.IV. Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini aydınlaşdırır, əsalandırılmış münasibət bildirir.<br>1.3.4.III. Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini aydınlaşdırır, münasibət bildirir.<br>1.3.4.II. Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini nümunələr əsasında aydınlaşdırır.<br>1.3.4.I. Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini aydınlaşdırır. |
| **2. Şifahi nitq** | |
| **2.1. Şifahi nitq bacarıqlarını nümayiş etdirir** | **2.1.QS4 Şifahi nitq bacarıqlarını nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 2.1.1.Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir. | 2.1.1.IV. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında ümumiləşdirici münasibət bildirir.<br>2.1.1.III. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında əsaslandırılmış münasibət bildirir.<br>2.1.1.II. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir, nəticə çıxarır.<br>2.1.1.I. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir. |
| 2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara münasibətini əsaslandırır. | 2.1.2.IV. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara münasibətini ümumiləşdirmələrlə əsaslandırır.<br>2.1.2.III. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara əsaslandırılmış münasibət bildirir.<br>2.1.2.II. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara nümunələr əsasında münasibət bildirir.<br>2.1.2.I. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara münasibət bildirir. |
| **2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.** | **2.2.QS5. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 2.2.1. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | 2.2.1.IV. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.<br>2.2.1.III. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən istifadə edir.<br>2.2.1.II. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən istifadə edir.<br>2.2.1.I. Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir, dinləyicilərin rəyini nəzərə alır. |
| **3.Yazılı nitq** | |
| **3.1. Yazılı nitq bacarıqlarını nümayiş etdirir.** | **3.1.QS6. Yazılı nitq bacarıqlarını nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |

| | |
|---|---|
| 3.1.1.Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara geniş yer verir. | 3.1.1.IV. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlardan ümumiləşdirmə əsasında istifadə edir.<br>3.1.1.III. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlardan geniş istifadə edir.<br>3.1.1.II. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlardan istifadə edir.<br>3.1.1.I. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir. |
| 3.1.2.Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | 3.1.2.IV. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.<br>3.1.2.III. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, obrazlarına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır.<br>3.1.2.II. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına , obrazlarına münasibət bildirir, ümumiləşdirmələr aparır.<br>3.1.2.I. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin obrazlarına münasibət bildirir. |
| 3.1.3. 3- 3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | 3.1.3.IV. Mövzunu geniş əhatə etməklə 3- 3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.III. Mövzunu əhatə etməklə 3- 3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.II. Mövzunu, əsasən, əhatə etməklə 3 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.I. Mövzunu qismən əhatə etməklə 3 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. |

**XI sinif üzrə**

| **1. Ədəbiyyat və həyat həqiqətləri.** | |
|---|---|
| **Məzmun standartları** | **Qiymətləndirmə səviyyələri** |
| **1.1.Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir** | **1.1.QS2. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.1.1.Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | 1.1.1.IV. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə görə izah edir, işlənmə məqamını dəyərləndirir.<br>1.1.1.III. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir, sinonimlər göstərir.<br>1.1.1.II. Müxtəlif vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin və ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.<br>1.1.1.I. Müxtəlif vəznli şeirlərdə tanış olmayan sözlərin və ifadələrin mənasını işlənmə məqamına görə şərh edir. |

| | |
|---|---|
| 1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir. | 1.1.2.IV. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədilə istifadə edir.<br>1.1.2.III. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədilə istifadə edir.<br>1.1.2.II. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması məqsədilə istifadə edir.<br>1.1.2.I. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin məzmununun qavranılması məqsədilə istifadə edir. |
| 1.1.3.Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir. | 1.1.3.IV. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir.<br>1.1.3.III. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu (yığcam, geniş,yaradıcı) nağıl edir.<br>1.1.3.II. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, məzmununu (yığcam, geniş, yaradıcı) nağıl edir.<br>1.1.3.I. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrin məzmununu (yığcam, geniş, yaradıcı) nağıl edir. |
| 1.1.4. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | 1.1.4.IV. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini (epitet, bənzətmə, metafor…) seçimini əsaslandırmaqla müəyyənləşdirir.<br>1.1.4.III. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor…) fərqli cəhətlərini izah etməklə müəyyənləşdirir.<br>1.1.4.II. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini (epitet, bənzətmə, metafor…) fərqli cəhətlərini, əsasən, izah etməklə müəyyənləşdirir.<br>1.1.4.I. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, mürəkkəb süjetli əsərlərdə bədii təsvir vasitələrini (epitet, bənzətmə, metafor…) qismən izah etməklə müəyyənləşdirir. |
| 1.1.5.Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir, izah edir. | 1.1.5.IV. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir, dəyərləndirir və nəticə çıxarır.<br>1.1.5.III. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları əsaslandırmaqla müəyyənləşdirir.<br>1.1.5.II. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları izah etməklə müəyyənləşdirir.<br>1.1.5.I. Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları müəyyənləşdirir. |
| **1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlarını nümayiş etdirir.** | **1.2.QS2 Bədii nümunələrin təhlili üzrə bacarıqların nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |

| | |
|---|---|
| 1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından müqayisə edir. | 1.2.1.IV. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından müqayisə edir, ümumiləşdirmə aparır.<br>1.2.1.III. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (poema, hekayə, ovest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından müqayisə edir<br>1.2.1.II. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) dil, üslub baxımından izah edir.<br>1.2.1.I. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) dil baxımından müqayisə edir. |
| 1.2.2. Obrazları davranış və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | 1.2.2.IV. Obrazları davranış və əməllərinə, yaşadıqları dövrün sosial-siyasi şəraitinə və əxlaqi-etik dəyərlərinə əsaslanmaqla səciyyələndirir, müqayisələr aparır.<br>1.2.2.III. Obrazları davranış və əməllərinə, yaşadıqları dövrün sosial-siyasi şəraitinə və əxlaqi-etik dəyərlərinə əsaslanmaqla təhlil edir.<br>1.2.2.II. Obrazları davranış və əməllərinə, yaşadıqları dövrün sosial-siyasi şəraitinə əsaslanmaqla səciyyələndirir.<br>1.2.2.I. Obrazları davranış və əməllərinə əsaslanmaqla səciyyələndirir. |
| 1.2.3.Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini, həyata baxışını aydınlaşdırır, münasibət bildirir. | 1.2.3.IV. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini, həyata baxışını aydınlaşdırır, dəyərləndirir.<br>1.2.3.III. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini, həyata baxışını aydınlaşdırır, münasibət bildirir.<br>1.2.3.II. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini, həyata baxışını aydınlaşdırır.<br>1.2.3.I. Çoxsüjetli ədəbi nümunələrdəki epizodlara əsaslanmaqla obrazların xarakterini aydınlaşdırır. |
| 1.2.4. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir, nəticə çıxarır. | 1.2.4.IV. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir, nəticə çıxarır, dəyərləndirir.<br>1.2.4.III. Əsərdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.<br>1.2.4.II. Əsərdəki başlıca problemi müəyyənləşdirir, münasibət bildirir.<br>1.2.4.I. Əsərdəki başlıca problemi müəyyənləşdirir. |
| 1.2.5. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun fərqli həlli yolları barədə əsaslandırılmış fikir söyləyir. | 1.2.5.IV. Əsərdəki başlıca konflikti müəyynləşdirir, fərqli həlli yollarına əsaslandırılmış münasibət bildirir.<br>1.2.5.III. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, onun necə həll olunduğuna münasibət bildirir.<br>1.2.5.II. Əsərdəki başlıca konflikti müəyyənləşdirir, münasibət bildirir.<br>1.2.5.I. Əsərdəki başlıca konflikti müəyyənləşdirir. |
| 1.2.6. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla müqayisə edir, ümumiləşdirir. | 1.2.6.IV. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla müqayisə edir, ümumiləşdirmə aparır.<br>1.2.6.III. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla müqayisə edir.<br>1.2.6.II. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir, münasibət bildirir.<br>1.2.6.I. Sinifdə öyrəndiklərini müxtəlif mənbələrdən əldə etdiyi məlumatlarla zənginləşdirir. |

| | |
|---|---|
| 1.2.7.Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, müqayisə edir, münasibət bildirir. | 1.2.7.IV. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, müqayisələr aparır, əsaslandırılmış münasibət bildirir.<br>1.2.7.III. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, müqayisələr aparır, münasibət bldirir.<br>1.2.7.II. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, ilkin münasibət bildirir.<br>1.2.7.I. Müxtəlif vəznli (heca, əruz, sərbəst ) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır. |
| 1.2.8. Bədii nümunələrin mövzusuna, ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir. | 1.2.8.IV. Bədii nümunələrin mövzusuna, ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir, dəyərləndirmə aparır.<br>1.2.8.III. Bədii nümunələrin mövzusuna, ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə əsaslandırılmış münasibət bildirir.<br>1.2.8.II. Bədii nümunələrin mövzusuna, ideyasına dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir.<br>1.2.8.I. Bədii nümunələrin mövzusuna dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir. |
| **1.3. Ədəbi-tarixi (icmal), tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirir.** | **1.3.QS3. Ədəbi-tarixi (icmal), tərcümeyi-hal materiallarını mənimsədiyini və dəyərləndirdiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 1.3.1.Ədəbi-tarixi fakt və məlumatları izah edir, münasibət bildirir. | 1.3.1.IV. Ədəbi-tarixi fakt və məlumatları izah edir, əsaslandırılmış münasibət bildirir.<br>1.3.1.III.Ədəbi-tarixi fakt və məlumatları izah edir, ilkin münasibət bildirir.<br>1.3.1.II.Ədəbi-tarixi fakt və məlumatları izah edir.<br>1.3.1.I. Ədəbi-tarixi faktları izah edir. |
| 1.3.2.Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, münasibət bildirir. | 1.3.2.IV. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, əsaslandırılmış nəticə çıxarır.<br>1.3.2.III. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir, nəticə çıxarır.<br>1.3.2.II. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir.<br>1.3.2.I. Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan faktları izah edir. |
| 1.3.3.Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığında əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır və münasibət bildirir. | 1.3.3.IV. Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır, dəyərləndirmə aparır.<br>1.3.3.III. Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığındakı əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır, münasibət bildirir.<br>1.3.3.II. Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyat və yaradıcılığında əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır.<br>1.3.3.I. Mühüm tarixi, ədəbi-mədəni hadisələrə əsaslanmaqla yazıçının həyatındakı əhəmiyyətli dönəmlərin səbəbini şərh edir. |

| | |
|---|---|
| 1.3.4. Ədəbi-tarixi, mədəni həyatdakı inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir və onlara əsaslandırılmış münasibət bildirir. | 1.3.4.IV. Ədəbi-tarixi, mədəni həyatdakı inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir, onlara əsaslandırılmış münasibət bildirir.<br>1.3.4.III. Ədəbi-tarixi, mədəni həyatdakı inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir, onlara münasibət bidirir.<br>1.3.4.II. Ədəbi-tarixi, mədəni həyatdakı inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir.<br>1.3.4.I. Ədəbi-tarixi inkişafa istiqamət verən mühüm amilləri müəyyənləşdirir. |
| **2. Şifahi nitq** | |
| **2.1. Şifahi nitq bacarıqlarını nümayiş etdirir** | **2.1.QS4. Şifahi nitq bacarıqlarını nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 2.1.1.Müxtəlif mənbələrdən topladığı məlumatlardan istifadə etməklə ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında əsaslandırılmış münasibət bildirir. | 2.1.1.IV. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında əsaslandırılmış münasibət bildirir, dəyərləndirmə aparır.<br>2.1.1.III. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında əsaslandırılmış münasibət bildirir.<br>2.1.1.II. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir,nəticə çıxarır.<br>2.1.1.I. Müxtəlif mənbələrdən topladığı məlumatlara əsaslanmaqla ədəbi-tarixi hadisələrə, tərcümeyi-hal materiallarına təqdimat və çıxışlarında münasibət bildirir. |
| 2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, obrazların xarakterinə, təsvir olunanlara əsaslandırılmış münasibət bildirir. | 2.1.2.IV. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, obrazların xarakterinə, təsvir olunanlara əsaslandırılmış münasibət bildirir.<br>2.1.2.III. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, obrazların xarakterinə, təsvir olunanlara münasibət bildirir.<br>2.1.2.II. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, obrazların xarakterinə münasibət bildirir.<br>2.1.2.I. Dil və üslub xüsusiyyətlərinə istinad edərək obrazların xarakterinə münasibət bildirir. |
| **2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.** | **2.2.QS5. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 2.2.1.Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | 2.2.1.IV. Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.<br>2.2.1.III. Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir , dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən istifadə edir.<br>2.2.1.II. Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir, mimika və jestlərdən istifadə edir.<br>2.2.1.I. Müzakirələrdə ədəbi-tarixi faktlara, bədii nümunələrə və dinlədiklərinə münasibət bildirir. |
| **3.Yazılı nitq** | |
| **3.1. Yazılı nitq bacarıqlarını nümayiş etdirir.** | **3.1.QSVI Yazılı nitq bacarıqlarını nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |

| | |
|---|---|
| 3.1.1.Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara və şəxsi mühakimələrinə geniş yer verir. | 3.1.1.IV. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara və şəxsi mühakimələrinə geniş yer verir.<br>3.1.1.III. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara geniş yer verir.<br>3.1.1.II. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlara geniş yer verir.<br>3.1.1.I. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi faktlara yer verir. |
| 3.1.2.Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | 3.1.2.IV. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.<br>3.1.2.III. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, nəticə çıxarır.<br>3.1.2.II. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin ideyasına, obrazlarına münasibət bildirir.<br>3.1.2.I. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla ədəbi-tarixi fakt və hadisələrə, əsərin obrazlarına münasibət bildirir. |
| 3.1.3. 4- 4,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | 3.1.3.IV. Mövzunu geniş əhatə etməklə 4- 4,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.III. Mövzunu əhatə etməklə 4- 4,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.II. Mövzunu, əsasən, əhatə etməklə 4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.<br>3.1.3.I. Mövzunu qismən əhatə etməklə 4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. |

# III. Resurslar



### 3.1. Ədəbiyyat kabinetinin tələblərə uyğun təchizatı

| Sıra № | Resursun və maddi-texniki vasitələrin adı |
|---|---|
| | **I Kitabxana fondu (kağız daşıyıcı və internet resurslar)** |
| 1.1 | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə latın qrafikalı əlifba ilə nəşr edilib məktəb kitabxanalarına göndərilmiş və internetdə yerləşdirilmiş klassik və müasir ədəbiyyat nümunələri. (Dərsliklərdəki mövzular üzrə) |
| 1.2 | Heydər Əliyev və mədəniyyət. 3 cilddə. Bakı: Nurlar, 2008. |
| 1.3. | Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi qəzeti.25 okt 2013. N 41 (8558). |
| 1.4. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" |
| 1.5. | "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu |
| 1.6. | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu. V-XI siniflər. (Təlim Azərbaycan dilində olan məktəblər üçün). www. kurikulum.az/ images/.../ edebiyyat.pdf) |
| 1.7. | Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar.// Azərbaycan məktəbi, 2007 N 4. |
| 1.8. | Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu. 2006. |
| 1.9. | Arif M. Seçilmiş əsərləri. I-III cild. Bakı, 1967. |
| 1.10. | Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: APU-nun nəşri, 2011. |
| 1.11. | Bəylərov E. Formativ qiymətləndirmə. Kurikulum, 2009 N 2. |
| 1.12. | Cenni l.Stil, Kurtis S.Meredit və Çarlz Templ. Tənqidi təfəkkürün inkişaf etdirilməsi üsulları. II kitab. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, Bakı, 1999. |
| 1.13. | Cenni l.Stil, Kurtis S.Meredit və Çarlz Templ. Birgə təlim. V kitab. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, Bakı, Altun nəşr, 2000. |
| 1.14. | Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977. |
| 1.15. | Cəfərov M.C. Sənət yollarında. Bakı: Gənclik, 1975. |
| 1.16. | Энциклопедия интерактивного обучения. Е.Пометун. Киев, 2007. |
| 1.17. | Əlişanoğlu T. Azərbaycan "Yeni nəsr"i. Bakı: Elm, 1999. |
| 1.18. | Ərəb-fars sözləri lüğəti. I-II cild. Bakı: Şərq-Qərb, 2005. |
| 1.19. | Əsgərli Z. Poetika. İzahlı sözlük. Bakı:Elm, 2014, 262 s. |
| 1.20. | Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 1996. |
| 1.21. | Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979. |
| 1.22. | Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman. Bakı: Elm və təhsil. 2017. |
| 1.23. | Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016. |
| 1.24. | Həsənli B., Abdullazadə. N. İfadəli oxu. Bakı: Müəllim, 2015. |
| 1.25. | Həsənli B., Hüseynoğlu S., Mustafayeva A. Ədəbiyyat .X sinif. Müəllim üçün metodik vəsait. Bakı: Bakınəşr 2017. |
| 1.26. | Həsənli B., Hüseynoğlu S., Mustafayeva A. Ədəbiyyat .XI sinif. Müəllim üçün metodik vəsait. Bakı: Bakınəşr 2018. |
| 1.27. | Hüseynoğlu S.,Həsənli B., Mustafayeva A. Ədəbiyyat. X sinif. Dərslik. Bakı: Bakınəşr 2017. |

| | |
|---|---|
| 1.28. | Həbibbəyli İ., Hüseynoğlu S.Həsənli B., Mustafayeva A. Ədəbiyyat. XI sinif. Dərslik. Bakı: Bakınəşr 2018. |
| 1.29. | Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009. |
| 1.30. | Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009. |
| 1.31. | Hüseynoğlu S.Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019. |
| 1.32. | Hüseynov A. Nəsr və zaman. Bakı: Yazıçı, 1980. |
| 1.33. | İnnovativ təlim metodları və texnologiyaların tezaurusu. Bakı: XXI Əsr Təhsil Mərkəzi, 2014. |
| 1.34. | İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Müəllim üçün vəsait. Bakı, İREX, 2005. |
| 1.35. | İnteraktiv təlim ensiklopediyası [mətn]. Müəllimlər üçün tədris vəsaiti/ tərcümə və redaktə K.R.Quliyeva. Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi. Bakı, 2010. |
| 1.36. | Krouford A., Vendi Soul E., Metyu S., Makinster C. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Bakı, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2012. |
| 1.37. | Qarayev Y. Azərbaycan ədəbiyyatı. XIX və XX yüzillər. Bakı: Elm, 2002. Bakı: EA-nın nəşriyyatı, 1965. |
| 1.38. | Методика преподавания литературы. В 2-х частях. Под ред. О.Ю.Богдановой, В.Г.Маранцмана.М.:Просвещение, 1995. |
| 1.39. | Mikayılov Ş.,Bəkirova A., Əliyeva Ş. V-XI siniflərin ədəbiyyat dərslərində təlim texnologiyalarından kompleks şəkildə istifadə. Bakı:Çaşıoğlu, 2008. |
| 1.40. | Mir Cəlal, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988. |
| 1.41. | Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı:Maarif, 1992. |
| 1.42. | Müasir Azərbaycan ədəbiyyatı. I-II cild.Bakı: Bakı Universiteti. 2007. |
| 1.43. | Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. I-II cild. Bakı: Elm və təhsil. 2016. |
| 1.44. | Müəllim hazırlığının və orta təhsilin perspektivləri. (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Müəllim üçün vəsait. Bakı,İREX, 2005. |
| 1.45. | Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı:EL NPŞ. 2014. |
| 1.46. | Osmanlı V. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1985. |
| 1.47. | Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007. |
| 1.48. | Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999. |
| 1.49 | http://www.anl.az/el/latin_qrafikasi/mae/mae.php |
| 1.50. | http://anl.az/el/latin_qrafikasi/ea/ea.php |
| 1.51. | http://www.anl.az/el/latin_qrafikasi/kae/kae.php |
| 1.52. | http://anl.az/el.php |
| 1.53. | http://www.anl.az/el/latin_qrafikasi/mae/mae.php |
| 1.54. | http://anl.az/el/latin_qrafikasi/ea/ea.php |
| 1.55. | http://www.anl.az/el/latin_qrafikasi/kae/kae.php |
| 1.56. | http://anl.az/el.php |
| 1.57. | Ərəb, fars dillərində işlənilmiş sözlərin lüğəti. |
| 1.58. | https://ebooks.azlibnet.az/azlanglib.html |
| 1.59. | http://edebiyyat.ucoz.com |
| | **II Çap posterləri** |
| 2.1. | Multimedia kompüteri |
| 2.2. | Skaner |

| | |
|---|---|
| 2.3. | Lazer printeri |
| 2.4. | Surətçıxaran |
| 2.5. | Multiproyektor |
| 2.6. | Telekommunikasiya vasitələri |
| 2.7. | Elektron lövhə |

# IV. Tezaurus



**Blum taksonomiyası** – Çikaqo Universitetində Bencamin Blumun rəhbərlik etdiyi tədqiqatçılar qrupu tərəfindən 1950-ci ildə hazırlanmış təhsil məqsədlərinin təsnifatıdır. Ümumiyyətlə, qavramaya malik olmaq üçün bilik və qavramadan (ən aşağı) sintez və qiymətləndirməyə (ən yüksək) doğru aparan, istiqamətləndirən idraki məqsədləri əhatə edir. Blum taksonomiyası müəllimlər tərəfindən təlim məqsədlərini müəyyənləşdirmək üçün geniş şəkildə istifadə edilir.

**Dəstəkləyici mühit** - pedaqoji proses münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilir.

**Əsas standart** – fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir.

**Fəal interaktiv təlim** – təlim prosesinin elə təşkili formasıdır ki, burada müəllim bilikləri ötürən vəzifəsini deyil, bələdçi (fasilitator) vəzifəsini yerinə yetirir. Burada biliyin fərdlər və kollektivlə yanaşı, qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır.

**Fəal öyrənmə** - şagirdlərin kitab oxumaqla, iş vərəqlərini doldurmaqla və yaxud müəllimə qulaq asmaqla deyil, bir sıra digər fəaliyyətlər yerinə yetirməklə daha çox öyrəndikləri hər hansı bir situasiyadır. Əgər şagirdlər fəal deyillərsə, onda nə tam məşğul olurlar, nə də bacardıqları qədər öyrənirlər, bu halda fəal öyrənmə ilkin zəminə əsasən təşkil olunur. Fəal öyrənmə, həmçinin, koqnitiv xarakterli ola bilər, lakin adətən bəzi işləri – problemin həlli şəraitini, yaxud yenilikləri, kəşf xarakterli öyrənməni əhatə edir.

**Fəaliyyətin stimullaşdırılması** - şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir.

**Fəndaxili inteqrasiya** – (üfüqi) məzmun xətləri arasındakı əlaqələri əhatə etdiyindən müəllim imkan daxilində bir neçə məzmun xəttinə dair məzmun standartına müraciət etməklə təlim prosesində uğurlu nəticə əldə edə bilər.

**Fənlərarası inteqrasiya** – bu zaman müəllim müxtəlif fənlərə aid bir-birini tamamlayan və ya oxşar olan standartları seçir. Fənlərarası inteqrasiya şagirdlərə məzmunu tam şəkildə mənimsəməyə və həyatla əlaqələndirməyə imkan yaradır.

**İnklüziv təhsil** – (fr. inclusif — «özünə daxil edən», lat. include — «daxil edirəm») — ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesi. Bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

**İnteqrasiya** – latın sözü olub bərpa olunma, doldurulma, hissələrin bütöv bir tam halında birləşməsi, özü də sadə, mexaniki birləşməsi deyil, bir-birinə daxil olmaqla, bir-birinə təsir etməklə birləşməsi deməkdir. Milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı təmin edən, müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir.

**İnteraktiv öyrənmə** – təlim mənbələri ilə öyrənən birbaşa əlaqədə olduğu zaman və cavablar şagirdin ehtiyaclarına uyğun şəkildə formalaşdırıldıqda baş verir. Bir müəllimin bir şagirdi öyrətməsi yüksək dərəcədə interaktiv fəaliyyətdir. Kompüterlər və digər müasir texnoloji avadanlıqlar istənilən fənn üzrə hər hansı bir öyrənəni səmərəli interaktiv təlimlə təmin etmək üçün nəzəri cəhətdən imkan yaratmışdır.

**İnkişafyönümlülük** - şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir.

**Kurikulum** – latın sözü olub «kurs», «elm» deməkdir. Kurikulum son məqsədə çatmağın yollarını, vasitə və üsullarını, həmçinin bu sahədəki fəaliyyətin səmərəliliyini yoxlamağın metod və vasitələrini özündə əks etdirir. Başqa sözlə, kurikulum təhsil prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli və məqsədyönlü təşkilinə hərtərəfli imkan yaradan konseptual sənəddir. Elmə məlum olan mənbələrə görə kurikulum terminindən 1576-cı ildən etibarən istifadə olunmağa başlanmışdır. İlk kurikulum 1918-ci ildə ABŞ-da meydana çıxmışdır.

**Koqnitiv** – ( latınca koqnito) bilik, idrak deməkdir.

**Qiymətləndirmə standartı** - təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

**Qiymətləndirmə** – şagirdlərin və ya müəllimlərin öyrənməsinin və icrasının ölçüsdür. Müxtəlif növ ənənəvi qiymətləndirmə vasitələrinə – minimum səriştə testləri, inkişafın izlənməsi testləri, qabiliyyət testləri, müşahidə vasitələri, icra tapşırıqları və s. daxildir.

**Məzmun xətti** – fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

**Məzmun standartı** – təhsilalanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

**Pedaqoji prosesin tamlığı** - təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) şəkildə həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir.

**Problemli vəziyyət** - bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**Standartlar** – termin adətən elə səciyyəvi meyarlara aid edilir ki, onların əsasında şagirdlərin öyrənməli və etməli olduqları təxmin edilir. Bu standartlar adətən tədris proqramlarında iki formada olur:

**Məzmun standartları** - Bu standartlar şagirdlərin müxtəlif fənlər üzrə (məsələn, riyaziyat, fizika) bilməli və etməli olduqlarını müəyyənləşdirir.

**İcra standartları** - Bu standartlar gözlənilən öyrənmə səviyyələrini dəqiq müəyyənləşdirir. İcra standartları məzmun standartlarının yerinə yetirilmə səviyyələrini qiymətləndirir.

**Standart əsaslı təhsil** – şagirdlərin müəyyən edilmiş standartlara yiyələnməsinə yönəldilmiş təlim prosesidir. Kurikulum standartları qəbul edildikdən sonra müəllimlərdən elə dərs demək gözlənilir ki, şagirdlər həmin standartlara yiyələnə bilsinlər. Müəllimlər hər standartın nəyi bildirdiyini və onun necə qiymətləndiriləcəyini aydın başa düşməli, hər bir şagirdin təlim müvəffəqiyyətini ayrı-ayrı standartlara görə yoxlamalıdırlar.

**Taksonomiya** – yunan sözü olub taxos – sıra ilə yerləşdirilmə, nomos – qanun deməkdir. Daxilən kateqoriya və ardıcıl səviyyələrə bölünmüş pedaqoji sistemlər pedaqoji taksonomiyalar adını almışdır.

**Texnologiya** – yunan mənşəli söz olub, sənətə sistemli yanaşma deməkdir. Burada yanaşma dedikdə, problemlərə yönəlmiş, müəyyən prinsiplər əsasında idarə olunan yollar və vasitələr başa düşülür. Başqa sözlə, texnologiya müəyyən sahələrdə biliklər sisteminin tətbiqi nəticəsində xüsusi metodlardan istifadə edərək tapşırığı yerinə yetirmək tərzi kimi dərk olunur. Təhsil texnologiyaları təhsil sahəsinin özünəməxsus xüsusiyyətlərini müvafiq yanaşmalardan və metodlardan istifadə edərək inkişaf etdirilməsinin nəticəsi kimi, tədris texnologiyaları isə tədris prosesinin xüsusiyyətlərini müvafiq metodlardan istifadə edərək təlim prosesinin həyata keçirilməsinin təşkili kimi başa düşülməlidir.

**Təlim strategiyaları** - psixoloji və didaktik prinsiplər əsasında müəyyən edilib təhsil prosesində tətbiq olunan

forma, metod, üsul və vasitələrin məcmusudur.

**Təlimdə bərabər imkanların yaradılması -** bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir.

**Təlim nəticələri** – müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

**Təlimin məzmunu** – şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.